Azərbaycan Respublikası
Mərkəzi Bankı İdarə Heyətinin
«07» sentyabr 2022-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir.
Protokol № 38

AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ STRATEJİ VƏ LAYİHƏ İDARƏETMƏSİ DEPARTAMENTİ HAQQINDA

Ə S A S N A M Ə

BAKI – 2022

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Strateji və layihə idarəetməsi departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi Mərkəzi Bankda strateji idarəetmə və layihə idarəetməsi proseslərini dəstəkləmək, habelə Mərkəzi Bankın missiyasının effektiv həyata keçirilməsi və institusional inkişaf hədəflərinə nail olunmasına yardım etməkdən ibarətdir.

3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. ölkə üzrə strateji xarakterli sənədlərdə Mərkəzi Banka aidiyyəti tədbirlərin planlaşdırılması və icrası prosesində bankdaxili və dövlət qurumları ilə kommunikasiya, habelə koordinasiya, monitorinq və hesabatlığın həyata keçirilməsi;

3.2. Mərkəzi Bankda strateji planlaşdırma prosesinin idarə olunması;

3.3. Mərkəzi Bankda strateji monitorinq və hesabatlıq prosesinin həyata keçirilməsi;

3.4. Mərkəzi Bankda proqram və layihə idarəetməsi standartlarının inkişafı və təlimlərin təşkili;

3.5. Mərkəzi Bank üzrə illik təşkilati qiymətləndirmə prosesinin həyata keçirilməsi;

3.6. Mərkəzi Bankda beynəlxalq texniki yardım proqram və layihələri üzrə Fəaliyyət Planlarının icrasının monitorinq və hesabatlığının həyata keçirilməsi;

3.7. Departamentin əməliyyat planı və büdcə layihəsinin hazırlanmasında iştirak və icrasının təmin edilməsi;

3.8. Departamentin səlahiyyətlərinə aid məsələlər üzrə Mərkəzi Banka daxil olan müraciətlərə baxılması, sorğu və məktublara cavabların hazırlanması;

3.9. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı bölmələrdən ibarətdir:

4.1.1. Strateji idarəetmə şöbəsi;

4.1.2. Layihə idarəetməsi şöbəsi.

4.2. Departamentə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini rəhbərliyin müvafiq əmri ilə həvalə edilmiş şöbə rəislərindən biri icra edir.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.

5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

5.1. Strateji idarəetmə şöbəsi:

5.1.1. ölkə üzrə strateji xarakterli sənədlərdə aidiyyəti tədbirlərin planlaşdırılması prosesində bankdaxili və dövlət qurumları ilə kommunikasiya və koordinasiyanı həyata keçirir;

5.1.2. ölkə üzrə strateji xarakterli sənədlərin icrası üzrə Mərkəzi Bankın əsas və digər icraçısı olduğu tədbirlərin həyata keçirilməsi istiqamətində koordinasiya, monitorinq və hesabatlığı təşkil edir;

5.1.3. Mərkəzi Bank üzrə strateji təhlillərin aparılması və müzakirə sessiyalarının təşkili prosesini idarə edir;

5.1.4. yeni strateji dövr üzrə strateji prioritet və hədəflərin müəyyən olunması prosesini idarə edir;

5.1.5. Mərkəzi Bankın Strateji Plan sənədinin formalaşdırılması və kommunikasiyasını həyata keçirir;

5.1.6. strateji idarəetmə istiqamətində yeniliklərlə bağlı müxtəlif araşdırmalar və təhlillər aparır;

5.1.7. bankdaxili proqram və layihələrin planlaşdırılmasını həyata keçirir;

5.1.8. Mərkəzi Bank üzrə illik təşkilati qiymətləndirmə prosesini idarə edir;

5.1.9. rəhbərliyin tapşırığı ilə Şöbənin fəaliyyət istiqamətinə uyğun olaraq digər işləri yerinə yetirir.

5.2. Layihə idarəetməsi şöbəsi:

5.2.1. proqram və layihə sənədlərinin işlənilməsi prosesini idarə edir;

5.2.2. proqram və layihə portfelinin qəbul edilmiş standartlara uyğun idarə edilməsi, habelə monitorinq və hesabatlığını təşkil edir;

5.2.3. proqram və layihələrin nəzərdə tutulmuş keyfiyyət meyarlarına uyğun icrasına nəzarəti təmin edir;

5.2.4. layihə komandalarına müvafiq metodoloji dəstək göstərir və bu istiqamətdə təlimlər təşkil edir;

5.2.5. proqram və layihələrin icrası zamanı ortaya çıxan risk və mübahisəli məsələlərin rəhbərliyə çatdırılmasını təmin edirr;

5.2.6. beynəlxalq texniki yardım proqram və layihələri üzrə aidiyyəti fəaliyyət planlarının icrasının monitorinq və hesabatlığını həyata keçirir;

5.2.7. rəhbərliyin tapşırığı ilə Şöbənin fəaliyyət istiqamətinə uyğun olaraq digər işləri yerinə yetirir.

6. YEKUN MÜDDƏALAR

6.1. Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

6.2. Bu Əsasnamə qüvvəyə mindiyi gündən Mərkəzi Bankın İdarə Heyətinin 23 oktyabr 2020-ci il tarixli qərarı (Protokol № 48) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mərkəzi Bankının Korporativ idarəetmə departamenti haqqında Əsasnamə” ləğv edilir.

Mərkəzi Bankın sədri **Taleh Kazımov**